Prezidentin izi ilə

*Bu yerlərdə təbiətin harmoniyası tez-tez dəyişir, göz işlədikcə uzanıb gedən düzənliyi qəflətən yastı təpələr əvəz edir, sonra gen dərələr başlayır, bir qədər uzaqda zirvələri buludlara toxunan dağlar görünür. Azadlıq və qələbə havası dolaşan yurd yerlərində - Qarabağ və Şərqi Zəngəzurda qışın kiçik çilləsi dağlara qırov qırçınlı don geyindirib. Sanırsan ki, göydən yerə ağappaq ulduz səpələnir. Dağlardan əsən zəif külək qarı sovurur, ecazkar mənzərə yaranır, torpağın üstüylə sanki bir ağ duman burula-burula sürünür. Xocalının indiki qış mənzərələri xəyallarımızı çəkib ötən əsrin 90-cı illərinə aparır. Onda da yenə qış fəsli idi, amma xocalılılar qışın gözəlliyindən xəbərsiz idilər, qarı düşmən gecə-gündüz onların evlərini atəşə tuturdu, ölənlər və yaralılar əhalini sarsıdırdı. 1992-ci ilin qışı qarla-çovğunla gəlmişdi, torpağımızda xain düşmən dinc, köməksiz insanları atəşə tutur, qarın üzərinə qıpqırmızı qan tökülürdü, doğmalarını itirən insanların qəm-qüssədən, çarəsizlikdən, ümidsizlikdən bənizləri elə qar kimi ağarmışdı. Dörd bir tərəfdən mühasirədə qalan Xocalının qışı öz sakinlərinin həyatını və inamını da buza döndərmişdi. Sazaqlı hava, şaxta, Qarqar çayın adamı qılınc kimi kəsən soyuq suyu, dinc insanların ah-naləsi, düşmən gülləsinə tuş gələn yaralıların iniltisi, uşaqların çığırtısı dağı-daşı lərzəyə salmışdı. Xocalı şəhəri əhalisi ilə birlikdə yağı düşmənin kirli caynağında can verirdi. Elin igid oğulları son patrona qədər döyüşərək günahsız insanları xilas etməyə çalışırdılar. Tərslikdən həmin il Qarqar çayın suyu yaman çoxalmışdı, qışın şaxtasında buz kimi sudan keçənlərin ayaqları donmuşdu, yeriyə bilmirdilər, arxadan onlara atəş açan düşmənin əlinə keçməmək üçün sürünür, gizlənməyə çalışırdılar, ancaq çoxlarına bu da qismət olmadı. Kətik dağı və Qaraqaya istiqamətində hər tərəfi bürümüş qarın üzərində qətlə yetirilmiş qadınların, qocaların, uşaqların meyitləri şaxtanın soldurduğu çiçəklərə bənzəyirdi.*

# Qalib xalqın övladı kimi Xocalıya qayıdırıq



## Tarixin yaddaşı

Qarabağda hər daşın altında bir tarix yatır, Xocalı azərbaycanlıların tarixən məskunlaşdıqları qədim yurd yeridir və burada daş abidələrin qalıqları indiyə qədər qalıb. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri olub. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdı. Həmçinin burada dairəvi qəbr (1356-1357-ci illər) və mavzoley (XIV əsr) olub. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-807-ci illər) adı yazılmışdır. Xocalı tariximizin daş yaddaşıdır, ermənilər həmin tarixin izlərini silməyə cəhd ediblər, abidələr, kurqanlar dağıdılıb, daş nişanələr oğurlanıb, qədim qəbirlər məhv edilib. Haylar burada yalnız dağıtmaqla, uçurmaqla, yandırmaqla məşğul olublar. Mədəniyyət və tarix sarıdan şikəst olan, genetik çatışmazlıqdan əziyyət çəkən, paxıl və xəyanətkar ermənilər türklərin maddi-mənəvi sərvətlərini oğurlamaqla məşğul olublar.

8 aya yenidən qurulan Xocalıda bütün infrastruktur bərpa edilir, quruculuq aparılır, xocalılılar öz evlərinə qayıdırlar. Həyat yenidən çağlayır. Xocalı Böyük Qayıdışın yeni səhifəsi və yenidən qurulan yaşayış məskənlərindən biridir. Yaddaşı itirməmək üçün Xocalıdakı "Böyük Kurqan" çölündə arxeoloji park yaradılacaq. Xocalıda Azərbaycan xalqının tarixi keçmişini əks etdirən və erməni işğalı zamanı ağır zərbələrə məruz qalmış abidələr eramızdan əvvəl II minilliyin ikinci yarısı - I minilliyin əvvəllərində bu ərazinin böyük yaşayış məskəni olmasından xəbər verir. Əsasən "Böyük Kurqan" çölündə yerləşən Xocalı nekropolunun sahəsi 200 hektardır. İki zirvəsi olan "Haçatəpə kurqanı"nın diametri 300 metrdir. Qədim abidələrin tədqiqi və bərpası tarix elmində yeni səhifə açacaq. Xocalının üç min ildən artıq bir dövrü əhatə edən abidələr kompleksi təkcə Azərbaycanın deyil, Qafqazın və Türk dünyasının maddi-mədəni irsinin araşdırılması baxımından da əhəmiyyətlidir. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları ərazidə ilkin tədqiqat işlərinə başlayıblar. Əraziyə baxış keçirilib, arxeoloji abidələrin mövcud durumu öyrənilib. Mütəxəssislərin fikrincə, yeni araşdırmalar Qarabağın tarixinə dair qiymətli tarixi faktları aşkara çıxaracaq. Müasir şəhər kimi dirçələn Xocalıda unikal arxeoloji parkın təşkili turizmin inkişafına xidmət edəcək. Qədim abidələri ziyarət edən turistlər həm də yeni tarixin amansız faktı olan Xocalı soyqırımı barədə məlumat alacaqlar. Açıq hava altında muzey kimi fəaliyyət göstərəcək Xocalı arxeoloji parkı yeni formatda təqdim ediləcək, eyni zamanda Qarabağın zəngin tarixi keçmişinin, maddi-mədəni irsinin təbliği və tanıdılması işində ən böyük layihə olacaq. Arxeoloji park sübut edəcək ki, Xocalı təkcə inzibati ərazi deyil, tarixi min illərə söykənən qədim yaşayış məskənidir.

## Mühasirə

Xocalı 1991-ci ilin əvvəllərindən hər tərəfdən mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, ümid haya yoluna qalmışdı. Onu da ermənilər hər vaxt atəşə tuturdular. Bir neçə helikopter və "AN-2" təyyarəsi ermənilər tərəfindən vurularaq məhv edilmişdi. Həmin illər ərzində Azərbaycan hökuməti tərəfindən Xocalının müdafiəsi üçün ciddi bir iş görülmədi. Xocalıya sonuncu helikopter 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki helikopterin vurulması nəticəsində 47 nəfər azərbaycanlının həlak olmasıyla hava əlaqəsi də tamam kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində çətinliklə, həyəcan içərisində, qorxu altında yaşayır və müdafiə olunurdular. Çörək və un çatışmırdı. Şəhər rəhbərliyinin göstərişi ilə yalnız körpə uşaqları olan ailələrə bir-iki kiloqram un verilirdi. Xocalıda iki həkim və tibb işçiləri olsa da, dava-dərman çatışmırdı, ərzaq tükənirdi, əhali soyuq evlərdə gecələyirdi. Çıxış yolu yox idi, Xocalı tam mühasirədə qalmışdı. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə təşkil edilmişdi. Özbəkistanın Fərqanə vilayətindən didərgin düşmüş məshəti türklərinin, Ermənistandan deportasiya edilən soydaşlarımızın məskunlaşdıqları Xocalıya şəhər statusu verilmişdi. Burada məshəti türkləri və deportasiya qurbanları üçün yaraşıqlı və hər cür şəraiti olan böyük bir məhəllə salınmışdı. 1991-ci ilin payızında respublikada ictimai-siyasi sabitlik ciddi şəkildə pozulmuş, prezident üsul-idarəsi iflic vəziyyətinə düşmüş, parçalanma, anarxiya, qanunların işləməməsi, ən əsası isə hakimiyyət uğrunda gedən çarpışmalar Xocalıda baş verən hadisələri daha da sürətləndirmişdi. Ermənistan hakimiyyəti və onların havadarları, erməni lobbisi bu fürsətdən yararlanmaq və öz çirkin planlarını həyata keçirmək üçün döyüşlərin intensivliyini artırdılar. Erməni yaşayış məntəqələrinin əhatəsində olan Xocalı demək olar ki, altı aydan artıq müddətdə mühasirədə idi, dinc əhali dözülməz və ağır bir şəraitdə yaşayırdı. Respublika rəhbərliyinə mütəmadi şəkildə edilən müraciətlərə isə bəzən heç cavab verilmir, əhalinin mühasirədən çıxarılması üçün heç bir tədbir görülmürdü. Təcrübəli hərbçiləri daxili qoşunlardan və milli ordudan kənarlaşdırır, heç bir hərbi təhsili olmayan adamları müdafiə naziri, daxili qoşunların komandanı vəzifəsinə təyin edirdilər. 1991-ci ildə ermənilər Qarabağda 150 nəfərdən artıq azərbaycanlını qətlə yetirmişdilər. Adi adamlar fəlakət buludlarının sıxlaşdığını, qanlı tufanın yaxınlaşdığını hiss edir, bu barədə danışır, yaxınlaşan təhlükə ilə bağlı mərkəzi icra orqanlarına məktublar və teleqramlar göndərsələr də, sakitləşdirir, hələ də "qardaşlıq laylası" oxuyurdular. Ermənilər isə daha çox azərbaycanlı öldürənə "milli qəhrəman" adı verir, onları qırğınlara, türk qanı tökməyə, türk uşaqlarını süngüyə keçirməyə həvəsləndirirdilər. Xocalı təsadüfən seçilməmişdi. Bura ermənilər üçün azərbaycanlıların yaşayış məskənindən başqa, həm də strateji cəhətdən çox mühüm əhəmiyyət daşıyırdı. Ona görə ki, Xocalı Əsgəran qalası ilə Xankəndinin arasında yerləşir. Ermənilər keçmiş sovetin bədnam 366-cı alayın köməyindən istifadə edərək Xocalını daim atəş altında saxlayırdılar. Xocalı aeroportunu müdafiə edən Əlif Hacıyevin rəhbərliyi ilə OMON-nun bir qrupu, yerli özünümüdafiə dəstəsi və milli ordunun bir taqımı erməni hərbi birləşmələrinə qarşı qeyri - bərabər şəraitdə döyüşürdülər. Kömək isə gəlmirdi, sursat tükənir, yaralılara tibbi xidmət göstərmək üçün ləvazimat tapılmır, ərzaq və digər zəruri mallar gündən-günə azalırdı.

## Əsrin ən böyük faciəsi

Ermənistanın havadarlarının, xarici ölkələrdəki erməni terrorçularının və Xankəndidəki keçmiş sovetin 366-cı alayının texnikası və hərbiçilərinin köməyi ilə azərbaycanlılara qarşı törədilən Xocalı soyqırımından 33 il keçir. Hələ də bu qanlı faciənin üstü açılmayan, gizli qalmış məqamları çoxdur. Bir çox suallara hələ də cavab tapılmayıb. Hələ yüzlərlə insanın taleyindən heç bir soraq yoxdur. Xocalı erməni kəndlərinin əhatəsində qalsa da, Əsgəranla Xankəndi arasında məğrur dayanmışdı. Xocalıya görə ermənilər çox əl-qol aça bilmirdilər. Dinc əhali isə bütün məhrumiyyətlərə dözürdü. Şahidlərin dediklərinə görə, Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanıb. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli raketlərdən 2 saatlıq atəşdən sonra başlanıb. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhalinin bir hissəsi Əsgərana tərəf, digərləri Qarqar çayı keçərək Kətik dağı istiqamətinə, başqa bir dəstə isə Qaraqayaya doğru qaçmağa məcbur olub. Tezliklə aydın olub ki, bu məkrli hiylə imiş. Keçmiş Əsgəran (Xocalı) rayonunun Naxçıvanlı kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləbarana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanlı və Kətik dağı istiqamətində erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla qətl edilmişdir. Həmin müdhiş gecədə qırılan talelər, məhv edilən arzular və bir də ruhların səsi, XX əsrdə Azərbaycan türklərinə qarşı ermənilərin törətdikləri soyqırımı düşmənin xain xislətini, etnik nifrətini, qəddarlığını, vəhşiliyini göstərir. Hava buz kimi soyuq idi, şaxta adamı qılınc kimi kəsirdi, məhz həmin gecə saat 10-11 radələrində xocalılılar erməni və rus silahlı dəstələrinin hücumuna məruz qaldılar, quduz it kimi ulayan düşmən güllələrindən qurtulmaq üçün əhali, sözün əsl mənasında, çarpışırdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xocalılıların böyük bir qismi qarla örtülmüş dərə-təpələri aşaraq Ağdam istiqamətinə doğru irəliləyirdi. Fəqət, düşmən gülləleri onları öldürür. yaralayır, qanı axan insanlar sürünərək yola davam edirdilər. Kolların sırsıra bağlamış budaqlarından qan damcılayırdı, ağappaq çöllər qana boyanmışdı, Qaraqayanın üstü qan gölməçələri və düşmən güllələrinin izi ilə dolu idi. Həmin qayalar bir çox insanı xilas etmişdi. Qanlı gecədən sonra ermənilər ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanları axtarır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular. Ağdamın özünümüdafiə dəstələri ermənilərin dinc insanlara hücumunun qarşısını almağa çalışırdılar. Ağdamlılar ayağa qalxaraq dağlarda, qayalıqlarda gizlənən, soyuqdan donan insanları xilas edirdilər. Təxminən üç yaşındakı bir qız uşağı anasının qucağında donaraq ölmüşdü, əlləri, ayaqları şaxtadan keyimiş ana isə onun sağ olduğunu düşünərək son nəfəsi ilə balasını isitməyə çalışırdı. Dərhal yaralı qadınları, donmaq təhlükəsi ilə üzləşən uşaqları yük maşınları ilə Ağdam xəstəxanalarına daşımağa başladılar. Dağın ətəklərindən bir qədər uzaqdakı çöllük insan cəsədləri ilə dolu idi. Ağdam özünümüdafiə dəstələri erməni silahlılarının dinc insanları təqib etməsinin qarşısını döyüşərək saxlayır, cəsədlərin daşınması üçün meyitləri daşıyanları qoruyurdular. Ağdam məscidinə yüzlərlə cəsəd daşındı, onların arasında qoca, qadın və uşaqlar daha çox idi.

Bütün ağdamlılar faciə qurbanlarının el adətilə dəfn edilməsi üçün ayağa qalxmışdılar, xəstəxanalarda yaralılara yardım üçün qan verənlərin növbəsi ən azı yüz metrdən çox idi. Ağdam matəmə bürünmüşdü, düşmən bombaları altında yaşayan şəhərdə iki Şəhidlər Xiyabanı salınmışdı, həmin ərazilər dolandan sonra Uzundərə adlanan yerdə üçüncü Xiyaban yaradıldı və qətl edilmiş xocalılıların böyük əksəriyyəti orada dəfn olundu. Xalq sarsılmışdı, ermənilərin vəhşiliklə törətdikləri qırğının mənzərəsi çox dəhşətli və qorxunc idi. Erməni qəddarlığı nəticəsində xocalılıların meyitlərində skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxarılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Ermənistanın cinayətkar rejimi və onların havadarları 30 ilə yaxın Qarabağda şəhərləri, kəndləri xarabalığa çeviriblər, bu yerlərdə erməni vəhşiliyinin, vandallığının miqyası çox dəhşətlidir, təbiətə vurduqları zərərin nəticələri çox ağırdır, erməni faşistlər xalqımızın mədəni-dini abidələrini yerlə-yeksan ediblər, tariximizi, şəcərəmizin izini, qəbiristanlıqları yer üzündən silməyə cəhd ediblər. İslam dünyasının müqəddəs yerlərindən biri olan, "Allahın evi" sayılan məscidləri söküb-dağıdan erməni vəhşiləri qatı düşmənçilik ruhunda bu məkanları murdarlayıb, dini inanclarımızı təhqir ediblər. Özlərini dünyaya "yazıq", "məzlum" kimi təqdim edən erməniliyin əsl siması başqa xalqlara qarşı dözümsüzlük, türk düşmənçiliyi və varvarlıqdır. Heç uzağa getmək lazım deyil, Qarabağda törətdikləri vəhşilik onların murdar xislətindən xəbər verir. Yurdumuzun ən qədim yaşayış məskəni olan Xocalıda bu vəhşilik daha qəddarlıqla törədilib.

## Şahidlərin və itkinlərin acı taleyi

Xocalı faciəsinin şahidləri erməni faşizminin, insanlığa qarşı erməni taununun necə dəhşətli və fəlakətli olduğunu öz gözləri ilə görüblər. Erməni qəsbkarlarının Azərbaycan xalqına qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində törədilən qanlı cinayətlər, qətliamlar arasında Xocalı faciəsi xüsusi amansızlığına görə seçilir. Həmin ağrıları unutmaq mümkün deyil, insanlara dəymiş mənəvi zərbələr, ağrılar, kədər nəsildən-nəslə ötürülür, heç zaman unudulmur. Fevral ayının ikinci yarısından başlayaraq, Xocalı istiqamətində erməni silahlı dəstələrinin mühasirəsi daraldı və şəhər hər gün toplardan, ağır texnikadan atəşə tutuldu. Soyqırımı şahidlərinin çoxu vəfat edib, sağ qalanlar isə 33 il bundan əvvəl törədilmiş faciəni unuda bilmirlər. Həmin alayda 1988-ci ildən 1992-ci ilin mart ayına kimi xidmət etmiş rus zabiti bu barədə çox maraqlı açıqlamalar verib. O, qərargah rəisinin müavini olub. Onun məlumatına görə, motoatıcı alay 1985-ci ildə Gəncədən Xankəndiyə köçürülüb. Çox güman ki, bu işdə də erməni barmağı olub. 366-cı alayın şəxsi heyətinin 70-80 faizi ermənilərdən ibarət olub. Məhz Xocalıya hücum zamanı ermənilər həmin alayın 20-30 tankından istifadə edərək Xocalını intensiv atəşə tutublar. Faciənin şahidləri bildiriblər ki, şəhərə hücum zamanı hərbi texnikanı idarə edənlərin və piyadaların tərkibində rus əsgər və zabitləri iştirak ediblər. Həmin alay ləğv edidikdən sonra bir çox həqiqətlər ortaya çıxdı.

***(davamı növbəti saylarımızda)***

**Salman ALIOĞLU,**
**Mikayıl NƏRİMANOĞLU,**
**Rauf İBRAHİMOV (foto),**
**"Respublika".**











